**“Dövlət qulluqçularının etik davranış qaydaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq etik davranış məsələləri ilə bağlı həyata keçirilmiş maarifləndirmə tədbirləri və etik davranış qaydalarına əməl edilməsi vəziyyəti barədə 2023-cü il üzrə**

# H E S A B A T

“Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş etik davranış qaydalarına əməl edilməsinə nəzarət etmək, həmin Qanunun müddəalarının pozulması ilə bağlı şikayətlər və məlumatlar qəbul etmək, dövlət qulluqçuları tərəfindən etik davranış qaydalarına əməl edilməsi vəziyyətini öyrənmək və etik davranış məsələləri üzrə maarifləndirməni həyata keçirmək Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinin (bundan sonra - Mərkəz) əsas vəzifələrindəndir.

Azərbaycan Respublikası Prezidentinin 23 noyabr 2018-ci il tarixli 739 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019−2025-ci illər üçün Strategiya”nın 2019−2021-ci illərdə icrası üzrə Fəaliyyət Planının 8.10.1-ci yarımbəndində dövlət qulluqçularının, xüsusilə də rəhbər vəzifəli və dövlət qulluğuna yeni qəbul olunan şəxslərin etik davranış qaydaları sahəsində bilik və bacarıqlarının inkişaf etdirilməsi məqsədilə mütəmadi olaraq onlar üçün etik davranış qaydaları mövzusunda təlimlərin keçirilməsi nəzərdə tutulmuşdur.

Mərkəz tərəfindən 24 may və 19 sentyabr tarixlərində Energetika Nazirliyində, 23 iyun tarixində Gənclər və İdman Nazirliyində, 2 və 13 oktyabr tarixlərində Qida Təhlükəsizliyi Agentliyində, 14 noyabr tarixində Diasporla iş üzrə Dövlət Komitəsində, 16 noyabr tarixində Dövlət Şəhərsalma və Arxitektura Komitəsində 28 noyabr tarixində Ali Attestasiya Komissiyası və 29 noyabr tarixində İqtisadiyyat Nazirliyində qulluq keçən dövlət qulluqçuları üçün “Dövlət qulluğunda korrupsiyaya qarşı mübarizə və etik davranış qaydalarının praktiki tətbiqi məsələləri” mövzusunda təlimlər təşkil olunmuşdur. Təlim iştirakçılarına korrupsiya anlayışı, korrupsiya ilə əlaqədar hüquqpozmaların subyektləri, korrupsiya hüquqpozmalarının növləri, korrupsiya hüquqpozmalarına görə məsuliyyət, korrupsiyaya qarşı mübarizədə beynəlxalq təcrübə, korrupsiyaya qarşı mübarizə metodları və vasitələri, Azərbaycan Respublikasında korrupsiyaya qarşı mübarizədə əldə edilmiş nailiyyətlər, eləcə də dövlət qulluqçularının etik davranış qaydaları, etik davranış qaydalarının əhəmiyyəti, korrupsiya ilə mübarizə və etik davranış qaydalarının tətbiqi məsələləri barədə məlumat verilmişdir. Təlimlərdə ümumilikdə 285 nəfər şəxs iştirak etmişdir.

Mərkəzi və yerli icra hakimiyyəti orqanları, habelə digər dövlət qurumları tərəfindən etik davranış qaydalarına əməl edilməsi vəziyyətinin öyrənilməsi və bu barədə məlumatların ümumiləşdirilərək təhlil edilməsi məqsədilə Mərkəz tərəfindən müvafiq iş aparılmışdır. Mərkəz tərəfindən "Etik davranış məsələləri üzrə məlumatın təqdim edilmə Forması" hazırlanmış və "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq vicdanlı və mədəni davranış, insanların hüquq, azadlıq və qanuni maraqlarına, şərəf və ləyaqətinə hörmət, korrupsiyanın və maraqlar toqquşmasının qarşısının alınması, qərəzsizlik və digər etik davranış qaydalarını və prinsiplərini, onlara əməl edilməsi məsələlərini əhatə edən antikorrupsiya, etika məsələləri üzrə mütəmadi və davamlı təlimlərin keçirilməsi tövsiyə edilmiş və il ərzində görülmüş maarifləndirmə tədbirləri (keçirilmiş treninqlər) və tətbiq edilmiş intizam tənbeh tədbirləri barədə məlumatların Mərkəzə təqdim edilməsi barədə mərkəzi və yerli icra hakimiyyəti orqanlarına, habelə Ali Attestasiya Komissiyasına, Audiovizual Şuraya, Məhkəmə-Hüquq Şurasına, Hesablama Palatasına, İnsan Hüquqları üzrə Müvəkkilə (Ombudsmana), Baş Prokurorluğa və Əqli Mülkiyyət Agentliyinə məktublar göndərilmişdir. Qeyd edilən qurumlar tərəfindən etik məsələlər üzrə təqdim edilmiş məlumatlar təhlil edilmiş və ümumiləşdirilmişdir.

Ümumilikdə dövlət qulluqçularının etik davranış qaydaları ilə bağlı keçirilən təlimlərdə dövlət orqanları üzrə 15748 nəfər dövlət qulluqçusu iştirak etmişdir.

Dövlət orqanları tərəfindən "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş etik davranış qaydalarına əməl edilməsi vəziyyəti, daha çox etik qaydaların pozulmasına yol verilmiş dövlət orqanları, pozulmuş etik qaydalar, etik davranış qaydaları üzrə aparılmış maarifləndirilmə işi ilə bağlı ictimaiyyətin mütəmadi olaraq məlumatlandırılması məqsədilə Mərkəz tərəfindən daim tədbirlər görülür, o cümlədən dövlət qulluqçularının etik davranış qaydaları mövzularında keçirilən təlimlərə dair məlumatlar Mərkəzin internet portalında yerləşdirilir.

## ÜMUMİLƏŞDİRİLMİŞ MƏLUMAT

Ümumilikdə hesabat dövründə «Dövlət qulluqçularının etik davranış qaydaları haqqında» Azərbaycan Respublikasının Qanununun müddəalarının tələblərini pozan 341 dövlət qulluqçusu barədə intizam tənbeh tədbiri tətbiq edilmişdir. Həmin intizam tənbeh tədbirlərindən 162-si mərkəzi icra hakimiyyəti orqanları və digər dövlət qurumlarında, 179-u isə yerli icra hakimiyyəti orqanlarında qulluq keçən dövlət qulluqçuları barədə tətbiq edilmişdir.

Mərkəzi və yerli icra hakimiyyəti orqanları, habelə digər dövlət qurumlarında tətbiq edilmiş 341 intizam tənbeh tədbirindən 297-si töhmət, 14-ü dövlət qulluğundan azad edilmə, 10-u vəzifə maaşının azaldılması, 6-sı ixtisas dərəcəsinin bir pillə aşağı salınması olmuşdur. (bax: diaqram 1). 14 intizam tənbeh tədbirinin növü qeyd edilməmişdir.

Mərkəzi və yerli icra hakimiyyəti orqanları, habelə digər dövlət qurumlarında qulluq keçən dövlət qulluqçularına tətbiq edilən intizam tənbeh tədbirlərinin təhlili zamanı müəyyən olunmuşdur ki, ümumilikdə mərkəzi və yerli icra hakimiyyəti orqanları, habelə digər dövlət qurumlarında qulluq keçən dövlət qulluqçularına tətbiq edilən intizam tənbeh tədbirləri yuxarıda adı çəkilən Qanunun 4-cü (Vicdanlı davranış), 5-ci (Peşəkarlıq və fərdi məsuliyyətin artırılması, 6-cı (Loyallıq), 7-ci (İctimai etimad), 8-ci (İnsanların hüquq, azadlıq və qanuni maraqlarına, şərəf və ləyaqətinə və işgüzar nüfuzuna hörmət. Hüquqi şəxslərin işgüzar nüfuzuna hörmət), 9-cu (Mədəni davranış), 10-cu (Əmr, sərəncam və ya tapşırıqların yerinə yetirilməsi), 11-ci (Qərəzsizlik), 12-ci (Maddi və qeyri-maddi nemətlərin,imtiyazların və ya güzəştlərin əldə edilməsinə yol verilməməsi), 13-cü (Korrupsiyanın qarşısının alınması), 15-ci (Maraqlar toqquşmasının qarşısının alınması) maddələrinin tələblərinin pozulması ilə bağlı olmuşdur.

"Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" Azərbaycan Respublikasının Qanununun 4-cü (Vicdanlı davranış) maddəsinin tələblərinin pozulması üzrə 16, 5-ci (Peşəkarlıq və fərdi məsuliyyətin artırılması) maddəsinin tələblərinin pozulması üzrə 144 , 6-cı (Loyallıq) maddəsinin tələblərinin pozulması üzrə 12, 7-ci (İctimai etimad) maddəsinin tələblərinin pozulması üzrə 3, 8-ci (İnsanların hüquq, azadlıq və qanuni maraqlarına, şərəf və ləyaqətinə və işgüzar nüfuzuna hörmət. Hüquqi şəxslərin işgüzar nüfuzuna hörmət) maddəsinin tələblərinin pozulması üzrə 3, 9-cu (Mədəni davranış) maddəsinin tələblərinin pozulması üzrə 8, 10-cu (Əmr, sərəncam və ya tapşırıqların yerinə yetirilməsi) maddəsinin tələblərinin pozulması üzrə 145, 11-ci (Qərəzsizlik) maddəsinin tələblərinin pozulması üzrə 1, 12-ci (Maddi və qeyri-maddi nemətlərin,imtiyazların və ya güzəştlərin əldə edilməsinə yol verilməməsi) maddəsinin tələblərinin pozulması üzrə 2, 13-cü (Korrupsiyanın qarşısının alınması) maddəsinin tələblərinin pozulması üzrə 4, 15-ci (Maraqlar toqquşmasının qarşısının alınması) maddəsinin tələblərinin pozulması üzrə 3 intizam tənbeh tədbiri tətbiq edilmişdir (bax: diaqram 2).

**Mərkəzi icra hakimiyyəti orqanları və digər dövlət qurumlarında** tətbiq edilmiş 162 intizam tənbeh tədbirindən 132-si töhmət, 8-i dövlət qulluğundan azad edilmə, 6-sı vəzifə maaşının azaldılması,4-ü isə ixtisas dərəcəsinin bir pillə aşağı salınması olmuşdur. 12 intizam tənbeh tədbirinin növü qeyd edilməmişdir.

Mərkəzi icra hakimiyyəti orqanları, habelə digər dövlət qurumlarında qulluq keçən dövlət qulluqçularına tətbiq edilən intizam tənbeh tədbirlərinin təhlili zamanı məlum olmuşdur ki, "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" Azərbaycan Respublikası Qanununun 4-cü (Vicdanlı davranış) maddəsinin tələblərinin pozulması üzrə 6, 5-ci (Peşəkarlıq və fərdi məsuliyyətin artırılması) maddəsinin tələblərinin pozulması üzrə 96 , 6-cı (Loyallıq) maddəsinin tələblərinin pozulması üzrə 10, 7-ci (İctimai etimad) maddəsinin tələblərinin pozulması üzrə 2, 8-ci (İnsanların hüquq, azadlıq və qanuni maraqlarına, şərəf və ləyaqətinə və işgüzar nüfuzuna hörmət. Hüquqi şəxslərin işgüzar nüfuzuna hörmət) maddəsinin tələblərinin pozulması üzrə 3, 9-cu (Mədəni davranış) maddəsinin tələblərinin pozulması üzrə 7, 10-cu (Əmr, sərəncam və ya tapşırıqların yerinə yetirilməsi) maddəsinin tələblərinin pozulması üzrə 31, 11-ci (Qərəzsizlik) maddəsinin tələblərinin pozulması üzrə 1, 12-ci (Maddi və qeyri-maddi nemətlərin,imtiyazların və ya güzəştlərin əldə edilməsinə yol verilməməsi) maddəsinin tələblərinin pozulması üzrə 1, 13-cü (Korrupsiyanın qarşısının alınması) maddəsinin tələblərinin pozulması üzrə 2, 15-ci (Maraqlar toqquşmasının qarşısının alınması) maddəsinin tələblərinin pozulması üzrə 3 intizam tənbeh tədbiri tətbiq edilmişdir.

**Yerli icra hakimiyyəti orqanları tərəfindən daxil olmuş məlumatların ümumiləşdirilməsi nəticəsində aşağıdakı məlumatlar əldə edilmişdir:**

Yerli icra hakimiyyəti orqanlarında tətbiq edilmiş 179 intizam tənbeh tədbirindən 165-i töhmət, 6-sı dövlət qulluğundan azadedilmə, 4-ü vəzifə maaşının aşağı salınması, 2-si ixtisas dərəcəsinin bir pillə aşağı salınması olmuşdur. 2 intizam tənbeh tədbirinin növü qeyd edilməmişdir.

Yerli icra hakimiyyəti orqanlarında qulluq keçən dövlət qulluqçularına tətbiq edilən intizam tənbeh tədbirlərinin təhlili zamanı məlum olmuşdur ki, "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" Azərbaycan Respublikasının Qanununun 4-cü (Vicdanlı davranış) maddəsinin tələblərinin pozulması üzrə 10, 5-ci (Peşəkarlıq və fərdi məsuliyyətin artırılması) maddəsinin tələblərinin pozulması üzrə 48, 6-cı (Loyallıq) maddəsinin tələblərinin pozulması üzrə 2, 7-ci (İctimai etimad) maddəsinin tələblərinin pozulması üzrə 1, 9-cu (Mədəni davranış) maddəsinin tələblərinin pozulması üzrə 1, 10-cu (Əmr, sərəncam və ya tapşırıqların yerinə yetirilməsi) maddəsinin tələblərinin pozulması üzrə 114, 12-ci (Maddi və qeyri-maddi nemətlərin,imtiyazların və ya güzəştlərin əldə edilməsinə yol verilməməsi) maddəsinin tələblərinin pozulması üzrə 1, 13-cü (Korrupsiyanın qarşısının alınması) maddəsinin tələblərinin pozulması üzrə 2 intizam tənbeh tədbiri tətbiq edilmişdir.

**Diaqram 1. Mərkəzi və yerli icra hakimiyyəti orqanları, habelə digər dövlət qurumları üzrə tətbiq edilmiş intizam tənbeh tədbirləri**



**Diaqram 2. Mərkəzi və yerli icra hakimiyyəti orqanları, habelə digər dövlət qurumları üzrə pozulmuş etik davranış qaydaları**

